*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.44-47*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.44-47*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.44-47*

**UOT: 37.091.3**
https://doi.org/10.30546/670832.2025.02.1034

# Pedaqoji peşə mədəniyyətinin təlim prosesində və müəllim-tələbə münasibətlərində rolu

**Müəllif(lər):**

**Durna Ələkbərova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** durnalkbrova@gmail.com
https://orcid.org/0009-0004-3197-9933

**Açar sözlər:** peşə mədəniyyəti, təhsil motivasiyası, pedaqoji üslub, pedaqoji texnika, peşə ünsiyyəti, humanist yanaşma

**Annotasiya.** Bu məqalədə pedaqoji peşə mədəniyyətinin təlim prosesində və müəllim-tələbə münasibətlərində rolu araşdırılır. Müəllimin peşə mədəniyyətini əhatə edən kommunikativ və psixoloji qabiliyyətlərinin tədris mühitinə təsiri təhlil olunur. Məqalədə pedaqoji peşə mədəniyyətinin mahiyyəti, struktur komponentləri və təlim prosesindəki rolu nəzərdən keçirilir. Həmçinin, müəllimin pedaqoji üslubunun, davranışlarının tələbənin təlim motivasiyasındakı əlaqəsi, emosional təhlükəsiz mühitin yaradılması və sosial inkişafı ilə əlaqəsinin əməkdaşlıq və şəxsiyyətlərarası ünsiyyətə təsirinin əhəmiyyəti vurğulanır. Tədqiqatda müəllim-tələbə münasibətlərində peşə mədəniyətinin yaratdığı psixoloji mühitin təlimin səmərəsinə təsiri diqqətə çatdırılır. Araşdırmanın praktik əhəmiyyətini əhatə edən aparılmış anket sorğusu və müşahidə metodu vasitəsilə tələbələrin mövzuya münasibəti öyrənilərək, əldə olunan nəticələr əsasında mövzunun əhatəli təhlili aparılır.

## The role of pedagogical professional culture in the teaching process and teacher-student relationships

**Author(s):**

**Durna Alekberova**
Nakhcivan Teachers Institute
Master student
**E-mail:** durnalkbrova@gmail.com
https://orcid.org/0009-0004-3197-9933

**Key words:** professional culture, educational motivation, pedagogical style, pedagogical technique, professional communication, humanistic approach

**Abstract**. In this article the role of pedagogical professional culture in the teaching process and in teacher–student relationships. The impact of teachers' communicative and psychological competencies is searched, covering professional culture, to the educational medium is analyzed. In the article the essence, structural components of pedagogical professional culture and its role in the teaching process are looked through. As well as the relation of pedagogical style of a teacher, his behavior in learning motivation of a student, formation of emotionally safe medium and the importance of its impact to the collaboration and inter-personal communication with social development are stated. In the study the effect of the psychological medium to the effectiveness of teaching formed by professional culture in teacher–student relationships is taken into account. Questionnaire and observation methods covering the practical significance of the research, students' attitudes toward the topic is studied and on the bases of obtained results the subject is analysed comprehensively.

## Роль педагогической профессиональной культуры в процессе обучения и в системе взаимоотношений «преподаватель-студент»

**Автор(ы):**

**Дурна Алекберова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** durnalkbrova@gmail.com
https://orcid.org/0009-0004-3197-9933

**Ключевые слова:**
профессиональная культура, учебная мотивация, педагогический стиль, педагогическая техника, профессиональное общение, гуманистический подход

**Аннотация.** В статье рассматривается роль педагогической профессиональной культуры в образовательном процессе и в системе взаимоотношений между преподавателем и студентом. Анализируется влияние коммуникативной компетентности и психологической готовности преподавателя как ключевых компонентов профессиональной культуры на образовательную среду. Раскрываются сущность и структурные элементы педагогической профессиональной культуры, подчёркивается её значение в формировании учебной мотивации обучающихся, создании эмоционально безопасной образовательной среды и развитии социально-коммуникативных навыков. В исследовании показано, что профессиональная культура преподавателя оказывает непосредственное влияние на эффективность обучения и качество межличностного взаимодействия. Практическая значимость работы определяется результатами анкетирования и педагогических наблюдений.

**Giriş.** Müasir dövrdə təhsil sistemi yalnız biliyin ötürülməsinə deyil, həm də şəxsiyyətin formalaşmasına, hərtərəfli inkişafına və sosiallaşmasına xidmət edir. Bu baxımdan müəllimin fəaliyyətindəki davranış və münasibətlər vacib rol oynayır. Pedaqoji peşə mədəniyyəti ümumi mədəniyyətin tərkib hissəsi olmaqla, özündə şəxsi keyfiyyət, yaradıcı təfəkkür, pedaqoji ustalıq kimi keyfiyyətləri birləşdirir. Hər peşənin qarşısında duran vəzifələrin yerinə yetirilməsi, əslində həmin peşənin mədəniyyətinin reallaşdırılması deməkdir. Müəllimlik peşəsinin də qarşısında duran vəzifələr müəllimin peşə mədəniyyətini ehtiva edir. Əgər müəllim cəmiyyət və gələcək nəsillər qarşısındakı rolunu dərk edərək öz peşə funksiyalarını vicdanla, qətiyyətlə, peşəkarlıqla yerinə yetirisə bu peşə mədəniyyətinə yüksək səviyyədə yiyələnməyin göstəricisidir. "Müəllimin pedaqoji peşə mədəniyyətini şərtləndirən amillər sırasında aşağıdakıları xüsusi olaraq qeyd etmək olar:

1) Ümumi mədəniyyətlə, kulturoloji səriştəyə malik olmaq;

2) Yaradıcı təfəkkürə yiyələnmək;

3) Yeni pedaqoji təfəkkürə yiyələnmək və onlardan istifadə etmək bacarıqlarına malik olmaq" [5, s.61].

Bu isə birdən-birə yaranmır, bunun üçün yalnız diplom da kifayət etmir. Pedaqoji peşə mədəniyyəti pedaqoji fəaliyyət prosesində formalaşaraq, müəllimin peşəsinə sevgisi nəticəsində yaranır. Pedaqoji peşə mədəniyyətinə yiyələnmək üçün nəzəri biliklərlə yanaşı, təcrübədə təkmilləşmək və peşə məsuliyyətini dərk etmək lazımdır. Müəllimin peşə mədəniyyətinə yiyələnməsi peşəkarlığın göstəricisidir. Peşəkar müəllim idarə etməyi, tərbiyə etməyi, hörmət göstərməyi bacarır, ixtisasının dərinliklərini, psixologiya və pedaqogika elmini, müasir pedaqoji texnologiyaların əsaslarını bilir.

"Müəllimin pedaqoji peşə mədəniyyəti onun peşəkar keyfiyyətləri sırasında mühüm yer tutur. Müəllimin didaktik, təşkilatçılıq, kommunikativ, konstruktiv, perseptiv, suqqestiv bacarıqları və qabiliyyətləri kimi, onun pedaqoji peşə mədəniyyəti də peşəkarlıq, səriştəlilik və pedaqoji ustalıq sferasında xüsusi rola malikdir" [5, s.60]. Bu isə təlim prosesində uğur qazanmaqla yanaşı, müsbət mənada müəlim-tələbə münasibətləri formalaşdırmağa imkan verir. Peşə mədəniyyətinin mahiyyəti onun məzmununda, komponentlərində əks olunur. Pedaqoji peşə mədəniyyətinin məzmununa daxildir:

1. Müəllimin pedaqoji prosesdə önə çıxan mədəniyyəti;
2. Müəllimin pedaqoji prosesin iştirakçıları ilə olan pedaqoji ünsiyyət mədəniyyəti;
3. Müəllimin şəxsi mədəniyyəti;
4. Müəllimin milli və ümumbəşəri dəyərlərə əsaslanan mədəniyyəti;
5. Müəllimin dərsdənkənar zamanlarda tələbələrlə münasibətdə önə çıxan mədəniyyəti.

Pedaqoji peşə mədəniyyətinin mühüm tərkib hissəsi olan pedaqoji ünsiyyət mədəniyyətinə yiyələnmək tələbələrin təlim motivasiyasında çox önəmli rol oynayır. Kommunikasiya bacarığı pedaqoji peşə mədəniyyətində aşağıdakı təsirlərə malikdir:

• sağlam ünsiyyət mühiti yaratmaq;
• dərs prosesində aydınlıq və səmərəlik;
• etik və mədəni davranış nümunəsi olmaq;
• problemlərin konstruktiv həlli.

Eyni zamanda, müəllimin kommunikativ davranışı onun pedaqoji etikasında özünü əks etdirir. Ünsiyyət mədəniyyəti müəllimin sözlərində, jest və mimikalarında, bədən dilində büruzə verir. Müəllimin ünsiyyət bacarığı müəyyən qədər temparament tipi, xarakteri ilə, digər tərəfdən isə insanlara olan münasibəti, sosial statusu, təcrübəsi ilə bağlıdır. "Ümumi mədəniyyətin tərkib hissəsi olan müəllimin peşə mədəniyyəti müəllimin hərəkət və davranışının, sözünün, münasibətinin mənəvi normalar daxilində olması deməkdir. Müəllim harada, hansı şəraitdə - sinifdə, məktəbdə, məktəbdənkənarda, cəmiyyət içərisində olursa-olsun müəllim olduğunu, müəllim kimi yüksək ad daşıdığını yaddan çıxarmamalı və mədəni hərəkət etməlidir. Bu həm müəllim peşəsinin, həm də bu adın daşıyıcısı kimi müəllimin özünün nüfuzunu artıran amillər kimi də mühüm əhəmiyyət kəsb edir" [5, s.61]. Peşə mədəniyyəti müəllimin istifadə etdiyi sözlərin, davranışların, münasibətin müəllimlik peşəsinə uyğun normalar daxilində olmasını tələb edir. Müəllim şəraitdən asılı olmayaraq müəlim olduğunu, yüksək status daşıdığını unutmamalıdır. Müəllimin şəxsi, yəni özunəməxsus mədəniyyəti ona görə mütləqdir ki, o tələbəyə bunu öyrədir. "Pedaqoji mədəniyyət ümumi mədəniyyətin geniş anlam olan tərkib hissəsi olub, əsasən təlim prosesində müəllim-tələ-

bə münasibətlərində, eləcə də müəllim-müəllim, müəllim-valideyn, tələbə-tələbə münasibətlərində öz əksini tapır" [1, s.140]. Tələbəni hərtərəfli hazırlamaq üçün müəllim ilk növbədə özü şəxsi mədəniyyətə yiyələnməlidir. Peşə mədəniyyəti aşağıdakı komponentlərdən ibarətdir:

1. Etik prinsiplərə riayət;
2. Kommunikativ bacarıqlar;
3. Pedaqoji takt və etik davranış;
4. Empatiya və dinləmə bacarığı;
5. Fəaliyyətdə özünüinkişafa meyillilik.

"Müəllim öz peşəsinə sevgisini uşaqların sevgisi ilə bağlamalıdır. L.Tolstoy yazmışdır: "Əgər müəllim yalnız işini sevirsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim ata-anası kimi yalnız uşaqları sevirsə, o əvvəlkindən də yaxşı müəllim olacaqdır. Əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə o əsil müəllimdir". Qəbul etməliyik ki, müəllimlik sənəti peşəyə sevgi tələb edir. Bu peşəni sevmədən bu işdə çalışmaq olmaz. Yaxşı bir müəllim olmaq üçün bu peşənin bütün incəlikləri, bütün çətinlikləri bu sevgi içərisində əridilməlidir" [4, s. 102].

Müəllimin şəxsi mədəniyyyətinə aid komponentlərin içərisində əxlaq və estetik mədəniyyətini xüsusi qeyd etmək lazımdır. Əxlaq mədəniyyəti humanist münasibətlərdə özünü göstərir. Humanist yanaşma, həm də müəllimin şəxsi nüfuzunun artmasına səbəb olur. Bu xüsusiyyət müəllimlik peşəsinin özəyində olan xüsusiyyətdir. Estetik mədəniyyət isə müəllimin cəmiyyətə və təbiətə qarşı estetik baxışı, xalq və dünya sənətinə bələdliyi, estetik zövqə malik olmasıdır. Hansı ki, bu pedaqoji peşə mədəniyyətinin məzmununa daxil olan müəllimin milli və dünyəvi dəyərlərə əsaslanan mədəniyyətidir.

Müəllimin peşə mədəniyyətinə yiyələnməsinin tələbə motivasiyasına təsiri danılmazdır. İlk növbədə müəllimin pedaqoji peşə mədəniyyətinə yiyələnərək düzgün üslub seçməsi tələbədə emosional təhlükəsizlik hissi yaradır. Tələbənin duyğu və fikirlərinin dəyərləndirilməsi özünəinamın, qorxu və təzyiqə əsaslanmayan yanaşma qarşılıqlı hörmətin yaranmasına şərait yaradır. Əksinə olduqda, müəllimin peşə mədəniyyətinin zəif olması psixoloji rifahın pozulmasına səbəb olur.

Pedaqoji peşə mədəniyyətinin komponentlərini sadalayarkən qeyd etdiyimiz ədalətli və humanist yanaşma tələbə şəxsiyyətinə mənəvi təsirsiz ötüşmür. Pedaqoji peşə mədəniyyətinə yiyələnmiş müəllim:

• ədalətli və prinsipial münasibəti ilə tələbəyə ədalət anlayışını aşılayır;

• nəzakətli yanaşma ilə cəmiyyətdə sosial davranış normalarını öyrədir;

• empatiya göstərməklə vicdan, hörmət kimi dəyərləri formalaşdırır.

"Pedaqoji fəaliyyət prosesində həmişə olduğu kimi, bu gün də əsas sima müəllimdir. Pedaqoji prosesdə nə qədər yaxşı texnologiyalar olsa da, təlim-tərbiyə işində nə qədər yaxşı texniki təlim vasitələri, nə qədər səmərəli kompüter texnikası tətbiq edilsə də, yenə də pedaqoji prosesdə əsas sima, başlıca şəxs müəllimdir. Müəllimin bacarığı, səriştəsi, pedaqoji ustalığı olmazsa heç bir texnika, texnologiya, innovasiya tətbiq edilə bilməz" [5, s.65]. Ədalətli, nəzakətli, vicdanlı müəllim peşə mədəniyyətinə malikdir, bununla o, pedaqoji ustalığını ortaya qoyur. Həm də tələbə-müəllim münasibətlərinin düzgün tənzimlənməsinə nail olur.

**Tədqiqatın praktik əhəmiyyəti** – Müəllimlərin peşə mədəniyyətinə yiyələnmə səviyyələri ilə tələbələrin təlim nəticələri və müəllim-tələbə münasibətlərindəki asılılığını tədqiq etməkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** – Pedaqoji peşə mədəniyyətinin məzmun və mahiyyətinin öyrənilməsi, həmçinin ölkə pedaqoqlarının mövzüya dair araşdırmalarını öyrənməkdir.

**Material və metodlar.** Tədqiqat çərçivəsində məlumat toplamaq üçün aşağıdakı üsullardan istifadə edilmişdir:

1. Müşahidə metodu

Müəllimin peşə mədəniyyətinin təlim prosesində və müəllim-tələbə münasibətlərində təsirini öyrənmək üçün qrupdaxili müşahidələr aparılmış və aşağıdakı nəticələr alınmışdır:

- əlverişli təlim prosesində tələbələrin yüksək motivasiyası;
- pedaqoji prinsiplərin düzgün istifadə olunduğu halda müəllim və tələbələrin qarşılıqlı anlaşması.

1. Sorğu (anket)

Tələbələrin müəllimlərin pedaqoji peşə mədəniyyətinə yiyələnməsindən hansı səviyyədə razı qaldıqlarını və bunun onların təlim nəticələrinə və münasibətlərə təsirini öyrənmək üçün sorğu aparıldı. Sorğu sualları aşağıdakı məqamları əhatə etmişdir:

- tələbələrin müəllimlərlə ünsiyyət problemlərini;

- müəllimlərin pedaqoji peşə mədəniyyətinə yiyələnmələrinin onların təlim nəticələrinə və təhsil motivasiyalarına təsiri.

Sorğunun nəticələrindən məlum olur ki, müəllimin peşə mədəniyyəti ünsiyyət prosesində və tələbələrin dərsə marağında mühüm rol oynayır. Tələbələrin əksəriyyəti müəllimlərlə ünsiyyət problemlərinin səbəbi kimi müəllimlərin peşə mədəniyyətinin məzmununa daxil olan komponentlərə malik olmamalarını göstərir. Tələbələrdən təlim prosesinin keyfiyyətini artırmaq üçün müəllimlərin hansı şəxsi keyfiyyətlərinin olmalı olduğunu soruşduqda humanist yanaşma, hörmət, nəzakət və vicdan kimi cavabların alınması mövzunun əhəmiyyətini bir daha göz önünə qoyur.

**Nəticə və müzakirə.** Müasir təhsil sistemində müəllimin rolu yalnız bilik ötürməkdən ibarət deyil, həm də tələbənin şəxsiyyətinin formalaşması, sosiallaşması və hərtərəfli inkişafında həlledici amildir. Aparılan araşdırma göstərir ki, müəllimin pedaqoji peşə mədəniyyətinə yiyələnməsi təlim prosesinin səmərəliliyini və müəllim-tələbə münasibətlərinin keyfiyyətini birbaşa təsir edir. Pedaqoji peşə mədəniyyətinə malik müəllim yalnız bilik verən deyil, həm də tələbənin daxili potensialını üzə çıxararaq onu gələcəyə hazırlayan bələdçidir.

Tədqiqat nəticələrinə görə, pedaqoji peşə mədəniyyətinin əsas komponentləri – etik prinsiplərə riayət, kommunikativ bacarıqlar, pedaqoji takt və etik davranış, empatiya, dinləmə bacarığı və özünüinkişafa meyillilik  müəllim-tələbə münasibətlərində qarşılıqlı hörmət və emosional təhlükəsizlik mühitinin yaranmasına səbəb olur. Sorğu və müşahidələr göstərdi ki, tələbələr müəllimlərin peşə mədəniyyətinə malik olmamalarını dərsə marağın azalması və ünsiyyət problemlərinin başlıca səbəbi kimi qiymətləndirirlər. Humanist yanaşma, nəzakət, vicdan və hörmət kimi müəllim keyfiyyətləri tələbənin təlim motivasiyasına və mənəvi inkişafına mühüm təsir göstərir.

Müəllimin pedaqoji peşə mədəniyyətinə yiyələnməsi həm tədris prosesinin keyfiyyətini artırır, həm də tələbələrlə sağlam ünsiyyət mühitinin formalaşmasını təmin edir. Bu baxımdan pedaqoji peşə mədəniyyətinin inkişaf etdirilməsi və müəllimlərə sistemli şəkildə aşılınması təhsilin keyfiyyətinin yüksəldilməsi və uğurlu nəticələrin əldə olunması üçün əsas şərtdir. Beləliklə, müəllim yalnız bilik ötürən kimi deyil, eyni zamanda tələbənin mənəvi və intellektual inkişafını yönəldən, nümunəvi və ədalətli bələdçi kimi çıxış etməlidir.

**Yekun nəticə.** Yuxarıda göstərilənlər qeyd etməyə imkan verir ki, təlim prosesində müəllimin aparıcı rolu danılmazdır. Bu öhdəliyin düzgün yerinə yetirilməsi isə müəllimin pedaqoji peşə mədəniyyətinə nə dərəcədə yiyələnməsindən asılıdır. Pedaqoji peşə mədəniyyətinin məzmununa daxil olan məsələlər təlim prosesinin gedişatını şərtləndirir və nəticə etibarilə, pedaqoji prosesin keyfiyyətini və səmərəsini müəyyənləşdirən əsas amillərdən biridir. Peşə mədəniyyətinə malik olan müəllim, yalniz bilik verən deyil, həm də tələbənin real daxili potensialını üzə çıxararaq onu gələcəyə hazırlayan bələdçidir. Bu baxımdan təhsildə uğurlu nəticələr əldə etmək istəyiriksə, müəllimlərin peşə mədəniyyətinin inkişaf etdirilməsi və bu bacarıqların müəllimlərə aşılanması daim diqqətdə saxlanmalıdır.

**Ədəbiyyat**

1. Abbasov, A. Müəllim hazırlığına yeni yanaşmalar / A.Abbasov. – Bakı: Mütərcim, –2012. – 324 s.
2. Bəşirov, B. Ali məktəb pedaqogikası / B.Bəşirov. – Bakı: APPU, – 1992.
3. Cəbrayılov, İ. Müasir təhsil: problemlər və həlli yolları. Monoqrafiya / İ. Cəbrayılov. – Bakı: Mütərcim, – 2018. – 508 s.
4. Hüseynzadə R. Pedaqogika / R.Hüseynzadə, Z.Əzizova, S.Əliyeva, Ü.Verdiyeva. – Bakı: Mütərcim, – 2021. – 488 s.
5. İlyasov, M. Müəllimin peşəkarlığının və pedaqoji səriştəliliyinin müasir problemləri. Monoqrafiya / M.İlyasov. – Bakı: Elm və təhsil, – 2018. – 208 s.
6. İlyasov, M. Müəllimin peşə səriştəliliyinin meyarları // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2016. – s.78-82.

*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 26.09.2025, son daxilolma – 17.10.2025, qəbulolunma – 05.12.2025